


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 162 (24.299)

*6 sentyabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.

Görüşdə regionda vəziyyət, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması barədə müzakirələr aparıldı.

Dövlətimizin başçısı Azərbaycanın Qarabağ bölgəsinin erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət olunmasına baxmayaraq, onların bundan imtina etdiklərini diqqətə çatdırdı.

İqor Xovayev Rusiyanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və regionda davamlı sülhün təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirdi.

## Prezident İlham Əliyev Slovakiya parlamenti sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Slovakiya parlamentinin sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu, energetika sahəsində əməkdaşlığın çox yaxşı səviyyədə olduğu qeyd edildi. Bu baxımdan Slovakiyanın "Həmrəylik Halqası" STRING layihəsində iştirakı əlaqələrimizin inkişafında çox mühüm hal kimi dəyərləndirildi.

Slovakiya nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərimizə səfər edəcəyi məmnunluqla qeyd olundu və bunun həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri ilə yaxından tanışlıq üçün yaxşı imkan yaradacağı bildirildi. Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiya tərəfindən həyata keçiriləcək "Smart village" – "Ağıllı kənd" layihəsinin önəmi vurğulandı.

Görüşdə Slovakiyanın Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına töhfə verdiyi bildirildi.

Parlamentlərarası əməkdaşlıq məsələsinə toxunularaq Boris Kolların geniş nümayəndə heyəti ilə ölkəmizə səfərinin bu sahədə əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

**AZƏRTAC**





## Səlahiyyətli nümayəndə Əlahiddə Ümumqoşun Orduda olub

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sentyabrın 5-də Əlahiddə Ümumqoşun Ordunun Komanda Məntəqəsinə gələrək məntəqənin fəaliyyəti ilə tanış olub. Komanda Məntəqəsinin Döyüşü İdarəetmə mərkəzində döyüş hazırlığının, təlimlərin gedişatı, eləcə də Ermənistan Respublikasının silahlı qüvvələrinin bölmələri ilə təmas xəttində cari vəziyyət haqqında məlumat verilib.

Sonra səlahiyyətli nümayəndə Əlahiddə Ümumqoşun Ordunun qərargahına gələrək yaradılmış şəraitlə tanış olub.

**"Şərq qapısı"**

## Dünya Robot Olimpiadasının Azərbaycan final mərhələsində qalib olan məktəblilərlə görüş



*Sentyabrın 5-də STEAM Təlim-Tədris Mərkəzində Dünya Robot Olimpiadasının Azərbaycan final mərhələsinin iştirakçıları və "Robosport" kateqoriyası üzrə qalib olan "Deusra" komandasının üzvləri ilə görüş keçirilib.*

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov olimpiadada qalib olan məktəbliləri təbrik edib. Bildirilib ki, muxtar respublikada da 2020-2021-ci tədris ilindən STEAM təhsil metodunun tətbiqinə başlanılıb və qısa müddət ərzində nazirliyin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi qurulub, 156 təhsil müəssisəsində STEAM kabinələri yaradılıb, ümumtəhsil məktəblərinin 70 faizi STEAM təhsilinə, 400-dən artıq müəllim STEAM təlimlərinə, 19 minə yaxın şagird isə STEAM təhsilinə cəlb olunub. Diqqətə çatdırılıb ki, məktəblilərimiz Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən keçirilən "Saf-2021" və "Saf-2022" festivallarında iştirak edərək uğurlu nəticələr əldə ediblər.

1-3 sentyabr tarixlərdə Azərbaycan Respublikası Gənclər və İdman, Elm və Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin, Dünya Robot Olimpiadası Assosiasiyasının və Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən VI Robot Olimpiadasında məktəblərin qalib olması Naxçıvan təhsilinin növbəti uğurudur.

STEAM təlimçisi Fuad Babayev bildirib ki, 160 komanda arasında birinci olmaq STEAM təhsilinin muxtar respublikanın ümumtəhsil məktəblərdə uğurlu tədrisinin nəticəsidir.

Rəhman Məmmədov qalib komandamız olan "Deusra"nın cari ilin 7-9 noyabr tarixlərdə Panama Respublikasında keçiriləcək Dünya Robot Olimpiadasında ölkəmizi təmsil edəcəyini də bildirib.

Sonda Dünya Robot Olimpiadasının Azərbaycan final mərhələsində məktəblilərin iştirakından bəhs edən videoçarxa baxış olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Növbəti səyyar qəbul keçirilib



Ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına hərtərəfli diqqət və qayğısının ifadəsidir ki, qədim diyarımızın bütün bölgələri sürətli inkişaf yolundadır. Bunu Ordubad rayonunun timsalında da görmək mümkündür. Rayon icra hakimiyyətində təşkil olunan qəbullarda bu barədə ətraflı danışılır. Növbəti dəfə təşkil edilən qəbulda Parağa kəndinin və Parağaçay qəsəbəsinin sakinləri iştirak ediblər. Qəbulda Parağa kəndində məskunlaşmış Qərbi Azərbaycandan gələn soydaşlarımızın müraciət və təklifləri dinlənilib.

İcra başçısı Rəcəb Rəhimli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikanın bütün rayonları kimi, Ordubad rayonunun da şəhər, qəsəbə və kəndlərinin gələcək inkişafı üçün xüsusi layihələrin hazırlanması, inkişaf strategiyalarının həyata keçirilməsinin də nəzərdə tutulduğunu bildirib.

Qəbul zamanı sakinlərin qarşılaşdıqları çətinliklər dinlənilərək məsul şəxslərin iştirakı ilə müvafiq sahələr üzrə müzakirələr aparılıb, görüləcək işlər müəyyənləşdirilib və İcra Hakimiyyətinin başçısı tərəfindən müvafiq idarə və təşkilatlara tapşırıqlar verilib.

**Xəbərlər şöbəsi**

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan elminin inkişafını daim diqqət mərkəzində saxlamış, onun inkişafına qayğı göstərmişdir. Ulu Öndər elmin inkişafının yalnız mərkəzdə cəmlənməsi ilə razılaşmamış, Azərbaycanın regionlarında da elmin inkişafı üçün tutarlı tədbirlər görmüşdür. 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması ilə bağlı görkəmli dövlət xadiminin müvafiq Sərəncamı bunun bariz nümunəsi idi.*

# Yeni tədqiqatlar tariximizin açılmamış səhifələrini üzə çıxarır


*Sədərək şəhərinin qalıqları*

2002-ci il avqust ayının 12-də AMEA Naxçıvan Bölməsinin yaradılması ilə bağlı iclasda çıxış edərkən Ulu Öndər Heydər Əliyev demişdir: ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən, dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram".*** XX əsrdə Azərbaycan Respublikasının müstəqillik qazanması ölkəmizin sosial-iqtisadi və mədəni inkişafı üçün yeni fürsət verdi. Müstəqillik illərində ölkəmizin qarşısında duran vəzifələri dərindən təhlil edən görkəmli dövlət xadimi deyirdi: ***"Müstəqillik haqqında şüar demək, yaxud onun haqqında yaxşı bir şeir oxumaq – bu hələ müstəqilliyi möhkəmləndirmək deyildir. Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib, əsərlər, illüstrativ materiallar, kino-lentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır".***

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Ulu Öndərin çıxışlarından irəli gələn məsələləri həll etmək üçün geniş fəaliyyət proqramı hazırlayaraq onu həyata keçirmiş və bu işlər uğurla davam etdirilməkdədir. Ötən illər ərzində tarix, ədəbiyyat, incəsənət, dil və folklorumuzla bağlı dəyərli tədqiqat əsərləri nəşr olunmuşdur. Bölmənin qarşısında duran mühüm vəzifələrdən biri də xalqımızın qədim tarixinin öyrənilməsi və tarixi həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılmasından ibarət idi. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu dünyanın müxtəlif ölkələrinin universitetləri ilə, o cümlədən Amerika Birləşmiş Ştatlarının Pensilvaniya, Emory, Utah, Avstraliyanın Monaş Universiteti ilə elmi əlaqələr yaratmışdır. 2006-cı ildən başlayaraq aparılan arxeoloji araşdırmalar xeyli uğurlu nəticələr vermişdir.

Məlum olduğu kimi, bədxah qonşularımız Cənubi Qafqazda mövcud olan qədim abidələri və arxeoloji mədəniyyətləri öz adlarına çıxmağa cəhd etmişlər. Orta Tunc dövrünə aid Qızqala yaşayış yerinin beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası tərəfindən öyrənilməsi nəticəsində boyalı qablarla fərqlənən Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq etmişdir. Beynəlxalq arxeoloji ekspedisiyanın Qızqala yaşayış yerində, həmçinin Bəzəkli, Qazançıqala, Qurddağ, Göynük qalası və digər abidələrdə müdafiə divarlarının aşkar edilməsi Orta Tunc dövründə Naxçıvanda böyük hərbi potensiala malik olan tayfaların yerləşdiyini göstərir. Bu tayfaların bir qismi oturaq, digər bir qismi yarımköçmə maldarlıqla məşğul olmuşdur. Qızqala ətrafındakı kurqanlardan skelet qalıqlarının aşkar olunması isə boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcəkdir. 2015-ci ilin ikinci yarısında bu abidələrin tədqiqi zamanı yeni faktlar aşkar olunmuşdur. İnsan skeletlərinin dişlərindən götürülən izotopların analizi zamanı müəyyən olunmuşdur ki, Arpaçay vadisində məskunlaşan qədim tayfaların məskəni Naxçıvan olmuşdur. Onlar yaz və yayda Arpaçay vadisi ilə indiki Ermənistan ərazisinə doğru hərəkət edərək yaylaqlardan istifadə etmiş və geri dönərək bu vadidə – Qızqala yaşayış yerində yaşamışlar. Eramızdan əvvəl II minilliyin ortalarında Yaxın Şərq və Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər, tayfalararası ziddiyyətlərin artması Arpaçay vadisində, Şərur düzündə yaşayan tayfaları müdafiə mövqeyi tutmağa məcbur etmiş, yaşayış yerində iri daşlardan qala divarları inşa edilmişdir. Bu tip qala divarlarına Cənubi Qafqazın digər Orta Tunc dövrü yaşayış yerlərində rastlanmaması Naxçıvanda yaşayan tayfaların regionun siyasi həyatında mühüm rol oynadığını göstərir.

Tədqiqatların yekunu Cənubi Qafqazın Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan oturaq və yarımköçəri həyat tərzini mənimsəyən tayfalara məxsus olduğunu təsdiq etmişdir.

Cənubi Qafqazda Dəmir dövrünün ən böyük abidələrindən biri olan Oğlanqala yaşayış yerində 2008-2012-cu illərdə beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası tərəfindən tədqiqatlar aparılmışdır. Həmin tədqiqatlar Naxçıvan tarixinin öyrənilməmiş səhifələrini üzə çıxarmağa imkan vermişdir. Araşdırmalar eramızdan əvvəl IX-VI əsrlərdə Oğlanqalanın müstəqil dövlətin mərkəzi olduğunu və urartulara qarşı müvəffəqiyyətlə mübarizə apardığını göstərir. Arxeoloji tapıntılar göstərir ki, bu dövrdə Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının Naxçıvanda məskunlaşması və Naxçıvan tayfalarının Göyçə ətrafındakı Etiuni tayfaları ilə ittifaq yaratması onun yadelli işğalçılara müqavimət göstərməsinə imkan yaratmışdır.

2019-2022-ci illərdə Dəmir dövrünün mühüm abidəsi olan Sədərək Kültəpəsində aparılan tədqiqatlar bu yaşayış yerinin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Dəmir dövrünə aid ən qədim şəhər yeri olduğunu göstərmişdir. Arxeoloji araşdırmalar zamanı şəhərtipli strukturların, təqribən, eramızdan əvvəl 900-790-cı illərdə, yəni urartuların Cənubi Qafqaza yürüşlərindən xeyli əvvəl salındığını təsdiq etmişdir. Qeyd etmək istəyirik ki, Yaxın Şərq və Cənubi Qafqazda formalaşan Urartu dövlətinin ermənilərlə etnik baxımdan yaxın olması ilə bağlı bəzi erməni alimlərinin uydurma fikirləri hazırda dünya alimləri tərəfindən alt-üst edilmişdir. Urartu dilinin mənşəcə türk dilləri ilə bağlılığı da söylənmişdir. Digər tərəfdən, Urartu işğallarına qədər Azərbaycanda, o cümlədən Naxçıvanda Etiuni tayfalarına məxsus mədəniyyət mövcud olmuşdur. 2023-cü il mayın 16-da Sədərək Kültəpəsinin tədqiqi zamanı aşkar olunan şəhərin strukturlarının öyrənilməsinə başlanmışdır. Tədqiqatlar zamanı Sədərək şəhərində daş döşəməli yeni küçənin qalığı aşkar edilib. Ümidvarıq ki, yeni tədqiqatların davamı tariximizin açılmamış səhifələrinin üzə çıxarılması ilə nəticələnəcəkdir.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Əməyin ödənilməsində yeni təsdiq olunmuş qaydalar təqdim edilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində tibbi sığorta əsasında fəaliyyət göstərən tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsinin yeni təsdiq olunmuş qaydaları təqdim olunub. Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov çıxış edərək deyib ki, yeni qaydaların tətbiqində başlıca məqsəd nazirliyin tabeliyindəki tibbi sığorta əsasında fəaliyyət göstərən səhiyyə müəssisələrində çalışan işçilərin uyğun əməkhaqqı ilə təmin edilməsi, peşəkarlığının və səriştələrinin yüksəldilməsinə maraqlarının artırılması, səhiyyə işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və ölçülməsi əsasında onların əməyinin ödəniş sisteminin tənzimlənməsidir.

Yığıncaqda çıxış edən nazirliyin əməkdaşı Əli Orucov yeni qaydaları iştirakçılara slayd vasitəsilə nümayiş etdirib. Qeyd edib ki, tibb müəssisələrində tibb və qeyri-tibb işçisinin xidməti fəaliyyətinə iqtisadi və kəmiyyət göstəricilərinə əsasən aylıq həvəsləndirici əlavələr veriləcək. Həkimlərin vəzifə öhdəliklərinin xarakterindən və müvafiq həkim ixtisası üzrə pasiyent müraciətinin qeydiyyatı xüsusiyyətlərindən asılı olaraq həkimlərə həvəsləndirici əlavələr sabit aylıq həvəsləndirici əlavələr və işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələr şəklində ayrı-ayrı hesablanacaq. Beləliklə, səhiyyə işçilərinin, xüsusilə həkimlərin əməkhaqları bir neçə mənbədən formalaşacaq. Aylıq vəzifə (tarif) maaşı, aylıq sabit həvəsləndirici əlavələr, işin nəticəsinə görə həvəsləndirici əlavələr, əmək şəraitinə görə ödənilən əlavə və qanunvericiliklə nəzərdə tutulmuş digər ödənişlər. Həkimlərə verilən işin nəticəsinə görə həvəsləndirici əlavələr göstərilən tibbi xidmətin tarifinə görə dəyişəcək. Tibbi xidmətlərin tarifləri Xidmətlər zərfi ilə tənzimlənir. Bundan əlavə, həkim cərrahi fəaliyyətlə məşğul olduğu halda icra edilən əməliyyat və tibbi prosedurlara görə də Xidmətlər zərfindəki tariflərə uyğun olaraq əlavələr alacaq. Xəstəxanaların kateqoriyalarına gəldikdə isə muxtar respublika üzrə Naxçıvan Muxtar Respublika Xəstəxanası və Perinatal Mərkəz yüksək balla qiymətləndirilərək 3D kateqoriyasında müəyyənləşib. Digər xəstəxanalar müvafiq olaraq 2C, 2D kateqoriyalarındadır.

Sonda Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov yığıncaq iştirakçılarına muxtar respublikada keyfiyyətli tibbi xidmətin göstərilməsi istiqamətində tapşırıqlarını bildirib.

**✍ Aidə İBRAHİMOVA**

## "Heydər Əliyev: tariximizdə və taleyimizdə" kitabı haqqında qeydlər




*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 29 sentyabr 2022-ci ildə imzalanan Sərəncamla 2023-cü il "Heydər Əliyev İli" elan olunub. Xalqımız Azərbaycan xalqının tarixinə silinməz izlər həkk edən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini böyük qürur hissi ilə qeyd edir.*

Bu günlərdə yenicə işıq üzü görən "Heydər Əliyev: tariximizdə və taleyimizdə" kitabı da Ulu Öndərin yüzillik yubileyinə həsr olunub. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Baş direktoru, AMEA-nın müxbir üzvü, dilçi professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi Əbülfəz Quliyev və filologiya üzrə fəlsəfə doktoru Aliyə Quliyevanın həmmüəllifliyi ilə işıq üzü görən kitabın elmi redaktoru və Ön söz müəllifi AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, rəyçisi isə dosent Ramiz Qasımovdur.

"Heydər Əliyevin tariximizdə və taleyimizdəki yeri və rolu" adlı ön sözdə akademik İsmayıl Hacıyev qüdrətli dövlət xadiminin iki sistem daxilində Azərbaycana rəhbərlik etməsini qeyd edərək bildirir: "Azərbaycan Respublikası həm müstəqillikdən əvvəlki, həm də müstəqillik illərində çətinliklərlə qarşılaşsa da, Heydər Əliyevin yüksək təşkilatçılıq bacarığı, idarəetmənin yüksək bilicisi, insanlarla işləmək məharəti respublikamızın qarşısında duran problemləri uğurla həll etmişdir. Təsadüfi deyildir ki, Heydər Əliyevin rəhbərlik etdiyi illər Azərbaycan tarixinin intibah dövrü kimi xarakterizə edilir".

Müəlliflər kitabı altı bölmədə oxuculara təqdim edir. "Heydər Əliyev və Azərbaycan" adlanan birinci bölmədə müasir və müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin Ümummilli Liderlik keyfiyyətləri, Azərbaycançılıq ideyası özünü göstərir. Həyata keçirdiyi çoxşaxəli işlərdə xarakter nümayişi, ümumilikdə, Ulu Öndərin Azərbaycanın inkişafı və gələcəyi üçün gördüyü işlər və əməllərin həmişəyaşarlılığı vurğulanır. Eyni zamanda özündən sonrakı siyasi məktəb, siyasi varislik ənənələrinin təhlili nümunələr əsasında təqdim olunur. Bu baxımdan "Heydər Əliyevdən İlham Əliyevə: Azərbaycan multikulturalizmi" məqaləsində ortaq siyasi baxışın varislik ənənəsindəki davamlı inkişaf xətti təhlil edilir.

Kitabın ikinci bölməsi "Heydər Əliyev və Türk dünyası strategiyası" adlanır. Adından da göründüyü kimi, bu bölmədə Ulu Öndərin Türk dünyasının birliyi məsələləri istiqamətində həyata keçirdiyi görüşlər, səfərlər, proqramlar, Heydər Əliyevin Türk dünyasının ədəbiyyatı və ədəbiyyat xadimlərinə göstərdiyi diqqət və qayğı təhlil edilmiş, bununla birlikdə Ümummilli Liderin Qorqudşünaslıq sahəsinə həssas münasibəti ayrıca bir məqalədə dəyərləndirilərək uğurlu nəticələrə gəlinmişdir.

Üçüncü bölmə "Heydər Əliyevin dil və ədəbiyyat siyasəti"nə həsr olunub. Digər bölmələrlə müqayisədə biz burada daha əhatəli təhlil və müqayisələr, analiz və şərhlər görürük. Bu da təbiidir. Hər iki müəllif ixtisasca dilçidir və Ulu Öndərin bu sahədəki fəaliyyəti, Onun dilə olan böyük diqqət və qayğısı daha geniş diapazonda tədqiqat predmetinə çevrilmişdir. Bu istiqamətdə bölmədə yer alan "Ümummilli Lider və milli dilimizin inkişaf məsələləri", "Ulu Öndərin ideyaları işığında dilimiz və dilçiliyimizin inkişafı məsələləri", "Milli dəyərlər sistemində Ulu Öndər Heydər Əliyevin dil siyasəti", "Müstəqil dövlətimizin milli dil siyasəti", "Ulu Öndər Heydər Əliyev: bütöv Azərbaycanın lideri" və "Ulu Öndər Heydər Əliyevin ədəbiyyat siyasəti Cavid işığında" məqalələri bir-birini təkrarlamadan, bir-birini dəstəkləyən sistemli elmi tezislərin aydınlaşdırılmasına xidmət edərək geniş oxucu kütləsinin düşüncə panoramında aydın mənzərə kimi açılır.

Dördüncü bölmə isə özündən əvvəlki bölmənin davamı kimi diqqətəlayiqdir. "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlanan bu bölmədə Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycan mədəniyyətinin inkişafı məsələləri dəqiqliklə təhlil edilir, fəaliyyət tezisləri elmi süzgəcdən keçirilərək təqdim olunur. Eyni zamanda "Ulu Öndərin ilk bədii obrazı Naxçıvan səhnəsində" məqaləsində alim, yazıçı-publisist Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" pyesi əsasında Naxçıvan Dövlət Milli Dram Teatrında göstərilən tamaşa haqqındakı resenziya diqqəti cəlb edir. Ulu Öndərin səhnədəki ilk bədii obrazının yer aldığı tamaşa haqqındakı fikirlərdə biz dahi şəxsiyyətin ədəbiyyata necə yanaşdığının elmi şərhi ilə tanış olmaq fürsəti əldə edirik.

Kitabın beşinci bölməsi "Heydər Əliyevin siyasi fəaliyyəti araşdırmalar işığında" adlanır ki, burada müəlliflərin Ulu Öndərlə bağlı ayrı-ayrı dövrlərdə nəşr olunmuş kitab və monoqrafiyalar haqqındakı mətbu resenziyaları yer alıb. "Heydər Əliyevdən İlham Əliyevə akademik N.Cəfərovun araşdırmalarında", "Heydər Əliyevin milli dil siyasəti professor Yusif Seyidovun araşdırmalarında", "Tarix və müasirlik kontekstində Heydər Əliyev siyasəti", "Heydər Əliyev haqqında etüdlər" və "Ulu Öndərin liderlik missiyası" başlıqlı məqalələrdə akademiklər İsmayıl Hacıyevin, Bəkir Nəbiyevin, Nizami Cəfərovun, professor Yusif Seyidovun, dosentlər Ramiz Qasımov və Zülfiyyə İsmayılın Ulu Öndər haqqında çap etdirdikləri kitab və monoqrafiyalar haqqında müəlliflərin elmi-publisistik şərhləri öz əksini tapıb.

Nəhayət, kitabın sonuncu – altıncı bölməsi "Oxşar talelər işığında Heydər Əliyev" adlanır ki, burada adından da göründüyü kimi, bir-birinə bənzər talelərin qarşılıqlı müqayisələrlə təhlil edildiyi iki yazı əks olunub. "Oxşar talelər: Heydər Əliyev və Əziz Əliyev" məqaləsində adıçəkilən iki siyasi xadimin həyatlarının oxşar məqamlarına işıq tutulursa, "Heydər Əliyev ideyalarından Böyük Zəfərə" başlıqlı məqalədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin zəfər üslubu və bu üslubun formalaşmasında Ulu Öndərin siyasi fəaliyyətindən çıxarılan dərslərin uğurlu nəticələri təhlil edilmişdir.

Ümumilikdə, yüzə yaxın ədəbiyyatdan istifadə olunan kitab AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin və filologiya üzrə fəlsəfə doktoru Aliyə Quliyevanın qarşılıqlı elmi əməkdaşlığının uğurlu çap nəticəsi kimi də dəyərləndirilə bilər. Hər bir oxucu, eyni zamanda Ulu Öndərin siyasi fəaliyyətinin müxtəlif sahələrini öyrənən araşdırmaçılar üçün bu kitabın dəyərli mənbə rolu oynayacağı da şübhəsizdir.

**Elxan YURDOĞLU**
***AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, dosent***

*Hər bir xalq dünya mədəniyyətini öz töhfələri ilə zənginləşdirir və bütün bunlar bəşəriyyətin mədəni irsinə çevrilir. Milli və ümumbəşəri mahiyyət daşıyan mədəni dəyərlərimizdən biri də xalçalarımızdır. Həmin milli sərvətlərimizi ulu nənələrimiz, ana və bacılarımız bayatı deyə-deyə toxuyub və nəsildən-nəslə ərməğan ediblər. Xalçalar maddi ehtiyacdan yaransa da, daha çox mənəvi ruhun ifadəçisi kimi meydana gəlib. Xalçaçılığın Azərbaycanda çox qədim tarixi var. Arxeoloji materiallar və yazılı mənbələr əcdadlarımızın hələ eramızdan əvvəl də bu sənətlə məşğul olduğunu sübut edir.*

# Qərbi Azərbaycan xalçaları

## *İlmə-ilmə tarixə yaddaş olan naxışlar*



Görkəmli xalçaşünas alim Lətif Kərimov "Azərbaycan xalçası" adlı üçcildliyində xalçaçılığın arealını cənuba və şimala bölmədən, bütövlükdə, Azərbaycan xalçasının inkişaf genezisini izləyərək ilk dəfə olaraq xalça növlərinin dəqiq təsnifatını vermiş, sırf Azərbaycan xalçalarını İran, Qafqaz və sair xalçalardan fərqləndirmişdir. Çoxlu faktiki materialı öyrənmək əsasında o belə bir əsaslandırılmış nəticəyə gəlmişdir: "...Azərbaycan həmişə Qafqaz xalçaçılığı üçün məktəb olmuşdur". "Qafqaz" xalçaları kimi şöhrət qazanmış xalça kompozisiyalarının 90 faizini Azərbaycan ustalarının kompozisiyaları təşkil edir".

Bakı, Naxçıvan, Qarabağ, İrəvan, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı, Təbriz kimi əsas xalça qruplarında təsnif və tədqiq olunan Azərbaycan xalçaları aid olduğu bölgələrin coğrafi, etnik, mədəni müxtəlifliyini əks etdirir. Qərbi Azərbaycan xalçaları da vaxtilə bütün dünyada məşhur olmuşdur. Bu ərazidə toxunan xalçaları sənətkarlıq imkanlarına, toxunma texnologiyasına və rəng-naxış kompozisiya həllinə görə şərti olaraq Ağbaba, Şörəyel, Loru, Pəmbək, Şəmsəddin, Göyçə, Zərnibasar, Vedibasar, Qırxbulaq, Əştərək, Aran, Dərəçiçək, Talın, Zəngəzur, Dərələyəz və İrəvan mahalları qruplarında birləşdirilir. Bunların sırasında İrəvan xalçalarına diqqət yetirəndə bu xalçaların texniki və bədii təhlili tarixən bu bölgədə yaşayan azərbaycanlıların adət-ənənələrinin, məişətinin, mədəniyyətinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Tədqiqatçılar elmi əsaslara dayanaraq yazırlar: "Burada dekorativ-tətbiqi sənət sahələri arasında xalçaçılıq xüsusi yer tutmuşdur. Naxış kompozisiyasına görə Qazax, Qarabağ və Təbriz xalçaçılıq məktəblərinə daha yaxın olan İrəvan xalçaçılıq məktəbinin nümunələri zaman-zaman xarici ölkələrə daşınmış, erməni kolleksiyaçılarının "sərvətinə" çevrilmişdir. Bu gün bir çox yerdə ermənilərə məxsus olduğu deyilən, sərgilənən xalçalar azərbaycanlı anaların göz nuru, əl əməyidir".

Tarixçilərin qeydlərinə görə, İrəvan xanlığının həyatında mühüm rol oynayan sənətkarlıq müxtəlif sahələri özündə ehtiva edirdi. Azərbaycanlıların ənənəvi sənətkarlıq sahələri olan toxuculuq və dulusçuluq bütün Qərbi Azərbaycan boyunca geniş yayılmışdır. Xalça, palaz istehsalı xüsusi ilə seçilirdi. Həmin dövrlərdə bu ərazilərdə olan səyyahlar yerli əhalinin qoyun saxladığı və həmin yunları əyirib, boyayıb xalça, palaz, çul, qış geyimləri toxuduqlarını qeyd ediblər. Bu da onu bir daha sübut edir ki, bu ərazilərdə əzəldən azərbaycanlılar yaşayıb. Çünki tarixən qoyunçuluqla məşğul olmayan ermənilər xalça, kilim, palaz, şəddə, eləcə də digər toxuculuq məmulatlarının meydana gəlməsində rol oynaya bilməzlər. Həmin dövrdə bu bölgələrdə olan səyyah İ. Şopen hər ailədə toxuculuq dəzgahının olmasından, xüsusilə bəhs edir. Toxuculuqda xüsusi yerə malik olan bir sahə də boyaqçılıq olmuşdur. Bu bölgədə qırmızı rəngin müxtəlif çalarlarından hazırlanmış yun saplar boyanmışdır. Bu boyaq maddəsi haqqında tədqiqat aparan Rusiya Elmlər Akademiyasının akademiki Qammel İrəvanda hazırlanan bu boyağın xeyli üstünlükləri olduğunu bildirmişdir. Tarixi faktlar təsdiqləyir ki, vaxtilə İrəvan şəhərinin mərkəzində yerləşən Şiləçi məhəlləsində boyaq bitkilərindən al-əlvan rənglər alınmış, basma naxışlı parçalar istehsal edilmişdir.

Tədqiqatçılar Azərbaycan xalçaçılığının keçdiyi dörd əsas inkişaf mərhələsinə İrəvan qrupunu da şamil edirlər. İlk mərhələ xalça sənətinin ibtidai dövrüdür. Qərbi Azərbaycanda dəvə, qoyun yunundan, pambıqdan toxunan bəzəksiz, saya yerlikli palazlar və cecimlər bu mərhələyə aid edilir. Milli xalçaçılıq sənətimizin həm texniki, həm də bədii cəhətdən nisbətən təkmilləşmiş ikinci mərhələsində sadə keçirtmə, dolama texnikası ilə yundan, pambıqdan, bəzən də ipəkdən toxunan kilimlər meydana gəlir. İrəvan kilimləri üzərində romb, üçbucaq və trapesşəkilli naxışlar, ornamentlər öz əksini tapır. Burada "gəzməli kilim" adlandırılan mürəkkəb dekorativ quruluşlu nümunələrə də rast gəlinir. Üçüncü dövr vərni (ipək və yun), şəddə (yun, ipək, pambıq), zili (yun, pambıq, ipək), ladı (yun və pambıq) kimi xovsuz xalça məmulatlarının yaranması ilə xarakterizə olunur. Mürəkkəb dolama üsulu ilə toxunan İrəvan şəddələri və vərniləri, əsasən, maldarlıqla məşğul olan əhalinin məişətində geniş istifadə edilirdi. Vərnilərin əsas naxışları şahmat damaları qaydası ilə stilizə edilmiş iriölçülü əjdaha təsvirlərindən ibarət olurdu. Palaz və cecim texnikası əsasında toxunan şəddələr də müvafiq şəkildə sadə və mürəkkəb olmaqla, iki qrupa bölünürdü.

İrəvanla coğrafi yaxınlığı Zəngibasar bölgəsinin mədəni mühitinin formalaşmasına öz təsirini göstərib. Bölgənin Arbat, Aşağı Necilli, Qaraqışlaq, Dəmirçi, Zəngilər, Zəhmət, Rəncbər, Uluxanlı, Hacı Elləz, Şorlu kimi məntəqələrində toxunan xalçalar öz incəliyi, zərifliyi ilə seçilirdi. Kompozisiya quruluşuna görə bu ərazidə toxunan xalçaların Qazax-Borçalı və Təbriz xalça məktəbi ilə yaxınlığı hiss olunur.

Araşdırmalar göstərir ki, Zəngəzur mahalının xalçaçılıq ənənəsi isə daha çox Qarabağ xalça qrupunun ənənələrinə yaxındır. Buna səbəb Zəngəzurun tarixən Qarabağ xanlığı və burada yaşayan əhali ilə mədəni, iqtisadi əlaqələri və yaxınlığı idi. Mədəni-sosial anlamda Qarabağı Zəngəzurdan ayırmaq mümkün deyil. Naxçıvan, Qarabağla həmsərhəd olan Zəngəzur folklorunda, tətbiqi sənətində adıçəkilən bölgələrin təsiri duyulur. Avropanın bir çox tarixi mənbələrində "Cənubi Qafqazın İsveçrəsi" adlandırılan Dərələyəz mahalını Azərbaycanın xalçaçılıq sənətinin beşiklərindən biri hesab etmək olar. Dərələyəz mahalı Təbrizlə İrəvanı Qarabağa bağlayan yolun üzərində yerləşirdi. Bölgənin Almalı, Bülbülələn, Qabaxlı, Qara-qaya, Qovuşuq, Ələyəz, Əmağu, Kədikvəng, Gülüdüzü, Sallı, Hors, Çivə kəndlərində xalçaçılıq geniş yayılmışdı. Dərələyəzdə toxunan xalçalar kompozisiya quruluşuna görə həm Qarabağ, həm də Qazax-Borçalı xalça qrupunun nümunələrinə yaxındır. Xalçaçılar, əsasən, qara və qonur qoyun yunundan hazırlanmış iplərdən istifadə ediblər.

Beləliklə, İrəvan qrupu xalçalarının tarixi-etnoqrafik, sənətkarlıq baxımından təhlili onların Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi, tarixi keçmişimizin əvəzsiz yadigarı olduğunu bir daha təsdiq edir. İrəvan xanlığına, xalq yaradıcılığına məxsus olan bədii tikmə nümunələrindən ikisi Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır. 1827-ci ildə ruslar İrəvan şəhərini zəbt edərkən qənimət kimi götürdükləri İrəvan xanlığının bayraqları da bədii tikmə sənətinin nadir nümunəsidir.

Azərbaycan xalçaları barədə aparılan araşdırmaları oxuduqca , tarixini öyrəndikcə uşaqlıq illərimdə gördüyüm bir hadisəni xatırlayıram. Həmin illərdə ermənilər tez-tez Azərbaycanın başqa rayonlarına alış-veriş üçün üz tutduqları kimi, Naxçıvana da gələrdilər. Kimisi tərəvəz satmağa, kimisi bu qədim torpağın bərəkətli bağlarında bitən meyvələrdən alıb aparmağa, kimisi isə təzə xalçaları köhnələri ilə dəyişməyə gələrdilər. Bizim qadınlar da evlərində dədə-babadan qalan köhnə keçələri, kilim, palaz, xalçaları sevinə-sevinə həmin təzə xalılarla dəyişib evə gətirərdilər. Kimin ağlına gələrdi ki, şeytanın ağlına gəlməyən ermənilərin ağlına gəlir. Kim düşünərdi ki, onlar bu köhnə xalıları, kilimləri özlərinin tarixi keçmişi kimi gələcəkdə xarici ölkələrə göndərib bizimdir deyəcəklər. Elə də oldu, indi dünyanın bir çox muzeylərində erməni "tarixinin" inciləri kimi sərgilənən qədim toxuculuq məmulatlarının bir çoxu həmin illərdə onların bizə "bahalı" xalça verib qarşılığında aldıqlarıdır.

*Lakin onlar bir şeyi unudurdular, tarix yaddaşına yazılanlar heç vaxt silinmir. Dünyanın harasında olursa-olsun, bizim milliliyimizi, qədimliyimizi öz naxışlarında yaşadan tikmə, toxuma işləri "mən azərbaycanlı qadınların əl işiyəm", – deyir hər gələnə. İlmə-ilmə tarixə yaddaş olan naxışlar hər şeyi sübut edir.*

**Ramiyyə ƏKBƏROVA**

---

*Həyat insanın ömürboyu yol aldığı bir səyahətdir. Axı həyatın özü də davamlı hərəkətdədir. İnsan oğlu da bu hərəkətlə ayaqlaşmağa məcburdur. Hər gün, demək olar ki, yaxınlı-uzaqlı məsafələr qət edirik. İşimizin, sevdiklərimizin, xəyallarımızın ardınca gedir, çox zaman günümüzü yollarda başa vururuq. Müasir dövrümüzdə isə nəqliyyat vasitələri insanların gündəlik həyat tərzində mühüm rol oynayır. Bir çoxları şəxsi avtomobilindən və ya taksilərdən, bəziləri avtobuslardan, bəziləri isə qatardan istifadə edərək gedəcəkləri ünvana rahat bir şəkildə yetişirlər.*

*Jurnalistin qeydləri*

# Bəzən sərt, bəzən də kövrək dəmir yolları

Bu vasitələr sırasında qatar səfərləri həmişə diqqətimi cəlb edib. Çünki bu nəqliyyat vasitəsindən istifadə etmək bu günlərədək nəsibim olmamışdı. İzlədiyim filmlərdən, oxuduğum kitablardan qatar səfərləri hər zaman mənə duyğusal təsir bağışlayıb. Atamgil gənclik çağlarının qatarla səfərlərini əks etdirən yol təəssüratlarından danışanda həvəslə qulaq asar, bu səyahətdən xəyalən də olsa, zövq alardım.

Bu günlərdə oxuduğum bir kitab mənə, bu mənada, daha çox təsir göstərdi. Amerikalı yazıçı Paula Haukinsin "Qatardakı qız" əsərini oxuduqda qatar səyahətinə olan həvəsim daha da artdı. Bir gün mütləq qatara minib o xoş duyğuları yaşamalıydım. Ona görə də ilk fürsətdə Naxçıvan-Ordubad istiqamətində hərəkət edən qatarın sərnişini olmaq və bu kiçik səfərin təəssüratlarını paylaşmaq qərarına gəlmişdim...

Fürsət bazar gününə imiş. Bütün həftənin iş yorğunluğundan yaxamı qurtarıb Naxçıvan şəhərindəki dəmir yolu vağzalına yollandım. Ordubad istiqamətinə getmək üçün qatara bilet alıb stansiyada gözlədim... Birazdan gələcək qatarı stansiyada gözləmək belə ilk səfər təəssüratı üçün həyəcanlı imiş...

Və nəhayət, o qulaqbatırıcı səs... Ətraf aləmin sakitliyini pozan qatarın güclü fiti bizi o mənzərələrlə dolu səyahətə səsləyir. Bu səsi eşidən hər kəs çantasını götürərək öz yerini almağa tələsir. Növbəti vaqon "Stop" xəttində öz yerini alır, sərnişinlər enir, yola çıxacaq insanlar isə vaqonlara yaxınlaşaraq biletlərini nəzarətçiyə təqdim edirlər.



Vaqona qalxanda sərnişinlərin rahat bir şəkildə səfər edə bilməsi üçün yaradılan müasir şəraitin əyani şahidi oluram. Ətrafıma diqqət edirəm. Demək olar ki, qatarın daimi sakinlərinə çevrilmiş bu insanlar çox rahat və hər şeydən məmnundurlar. Kimisi səfər məqsədləri və təəssüratları, gündəmdəki məsələlər, rastına çıxan maraqlı hadisələr barədə söhbət edir, kimisi də mənim kimi səssizcə ətrafı seyr edib, qatarın yola düşməsini gözləyir. Nədənsə, bu cür səfərlərdə yalnız əyləşib düşüncələrə dalmaq istəyirəm. Çox səliqəli olan boş sərnişin kabinlərinin birində öz yerimi alıb əyləşirəm...

Çox çəkmir ki, lokomotiv siqnal verərək suyun üzərindəki ana ördək misalı balalarına bənzəyən vaqonlarını öz ardınca getməyə səsləyir və bir neçə saniyə ərzində hərəkətə başlayırıq. Əvvəlcə hərəkət çox yavaş baş verdiyindən hər şey insana adi gəlir. Az öncə qatarı gözlədiyimiz stansiyanın yaraşıqlı binaları, yaşıl dona bürünmüş ağaclar, yaxınlarını yola salmaq üçün gələn, öz işinin ardınca tələsən insanlar bir-bir geridə qalır. Getdikcə ritmik səsin fonunda sürətin artması məni yavaş-yavaş ətrafdan ayırıb xoş duyğulara qərq edir...

Ümumiyyətlə, səyahət etməyi sevənlər üçün qatarın hər zaman başqa bir yeri vardır. O da digər nəqliyyat vasitələri kimi, bizi gələcəyə, gedəcəyimiz ünvana aparsa da, qatarla səyahətdə sanki zamanın əksinə yol alırsan. Pəncərədən film kadrları kimi bir-birinin ardınca dəyişən mənzərələr qatar yolçularına heç vaxt darıxdırmayacağı xoş təəssüratlar bəxş edir. Və ən əsası o ritmik melodiya… Qatarın ayaqları altında dilə gələn dəmir relslərin melodiyası. İstər-istəməz heç zaman nizamı pozulmayan o ritmlərə aludə olursan. Baxışlarımızın ilişib qaldığı pəncərələrdə bir-birini əvəz edən mənzərələr də bu xoş melodiyanın ritmi ilə rəqs edir. Ritmlər getdikcə sürətlənir, mənzərələr də ona uyğunlaşaraq daha tez-tez geridə qalır. Çox keçmir ki, sən də o ritmin bir parçasına çevrilirsən, qəlbin sanki o səsin ahəngi ilə döyünür.

Naxçıvan şəhərindən uzaqlaşdıqdan sonra Xan Araz bizə daha yaxın yolyoldaşı olur. Sanki "məni izləyin" deyirmişcəsinə bələdçilik edir. Bəzən də araya girən dağların, təpələrin ardında gizləndikdən sonra yenidən boylanaraq bizi müşayiət edir. Çox keçmir ki, möhtəşəm görüntüsü ilə Gülüstan türbəsi bizi XII əsrdən salamlayır...

Bir azdan sürət tədricən azalır, "pəncərəmdəki kadrlar"ın ritmi yavaşıyır. Sonra isə Culfa şəhərindəki stansiyanın binası ilə üz-üzə dayanırıq. Yalnız bu anda öz zamanımıza geri dönürük. Həyat öz axarı ilə davam edir. Mənzilbaşına çatan insanlar qatardan enməyə tələsir, onların yerinə yeni sərnişinlər vaqonlarda öz yerini alır. Ümumiyyətlə, dəmir yolu həmişə həm yük daşınmasında, həm də sərnişinlər üçün ən təhlükəsiz, səmərəli və ucuz nəqliyyat vasitəsi olub. Bu gün də belədir.

Qatar hazırlıq fitini yenidən çalır. Hərəkətə gələn təkərlər polad relslər üzərində yenidən öz melodiyasına başlayır. Zamana yolçuluğumuz da, beləcə, davam edir. Araz boyunca uzanan Ordubadın yaşayış məntəqələrinin gözəl mənzərələri ilə sürətlə irəliləyirik. Bu görüntülər diyarımızın inkişafının daha bir təcəssümüdür. Gözəl təbiət mənzərələri ilə yanaşı, abad görkəmi, yaraşıqlı binaları və fərdi evləri ilə şəhər müasirliyindən heç də fərqlənməyən kəndlər birbirini əvəz edir. Sol tərəfdə isə bu inkişafa, rahat yaşayışa aparan daha bir mənzərənin şahidi oluruq. Culfa-Ordubad avtomobil yolu bu gün rayon sakinlərinə mənzilbaşına daha tez və rahat çatmağa imkan verir.

Elə bu düşüncələrlə də yollanacağımız ünvana çatırıq. Nostalji hisslər, tez-tez dəyişən kadrlar və maraqlı mənzərələrin fonunda səyahətin nə tez başa çatdığının heç fərqində belə olmuruq. Artıq Azərbaycanın incisi Ordubaddayıq. Qatardan endikdən sonra baxışlarım bizi müəyyən nizamla yüzlərlə kilometr uzağa aparan qoşa polad relslərə hakim kəsilir. "Dəmir" deyə xitab etməyimizə baxmayın o polad relslərə. Bəzən yupyumşaq, kövrək olmağı da bacarır. Axı onlar insanları, sevənləri bir-birinə qovuşdurmaq kimi bir xoşbəxtliyə vəsilə olur... Ancaq ötən əsrin 90-cı illərində buradan o istiqamətə sonuncu qatar getdi və bir daha geri dönmədi. 30 ilə yaxındır, bu səssizliyin simfoniyasını "dinləyən" relslər tezliklə yenidən o şaqraq səslərin ahəngi ilə həyatlarına davam edəcək. Bu dəfə isə həmişəlik… Çünki Zəngəzur dəhlizinin işə düşməsi illərdir, Naxçıvanı ana Vətəndən ayrı salan blokadanın üzərindən qalın bir xətt çəkəcək. Və bizi öz səyahətlərinin xəyalları ilə yaşadan qatarlar bu dəfə bizi Vətənimizin hər bir yerinə – Füzuliyə, Ağdama, Cəbrayıla, Zəngilana, Qubadlıya, Şuşaya aparacaq. O zaman "pəncərədəki kadrlarımız" da tam, bütöv olacaq. Az qalıb, lap az qalıb, mənzilbaşına çatdığımız kimi arzularımıza da qovuşacağımız gün uzaqda deyil… Qatar yenidən fit verir… Bu dəfə geriyə qayıtmaq üçün. Bu səs məni xəyallardan ayırsa da, sabaha olan inamımdan, ümidimdən ayırmır. Çünki qalib Azərbaycanın sabaha uzanan arzularının dəmirdən də möhkəm təməli artıq çoxdan atılıb…

**Gülcamal TAHİROVA**

*Bir neçə ildir ki, muxtar respublikamızın bütün rayon mərkəzlərində, eləcə də şəhərimizin Heydər Əliyev prospektindəki "Kitab Evi" sərgi-satış mərkəzində ənənəvi məktəbli yarmarkaları keçirilir. Hər il olduğu kimi, bu il də sentyabr ayının 1-dən start verilən və ayın 15-dək davam edəcək yarmarkada ailələrin büdcələrinə uyğun, sərfəli qiymətlərə məktəbli ləvazimatları təqdim edilir. Biz də həmin yarmarkaya üz tutub iştirak edənlərlə həmsöhbət olduq.*

# Yeni tədris ili üçün keçirilən yarmarkaya alıcılar böyük maraq göstərirlər



İlk müsahibimiz Naxçıvan şəhər sakini valideyn ***Rübabə Mehdiyeva*** bildirdi ki, qızı bu il 6-cı sinifdə təhsil alacaq. Elə bu səbəbdən də qızı ilə yarmarkaya məktəb ləvazimatları almaq üçün gəlib. Onun sözlərinə görə, şəhərimizin mağazaları ilə müqayisədə yarmarkada qiymətlər nisbətən daha ucuz və sərfəlidir. Bu da valideynlərin razılığına səbəb olur. Həmçinin yeni qərarın, yəni məktəbli formalarının dəyişdirilməsinə baxmayaraq, yaradılan şəraitə görə məktəblilər ötən il aldıqları məktəbli formalarından da istifadə edə bilər. Bu da, təbii ki, valideynlərin büdcəsinə çox böyük dəstəkdir. Müsahibimiz onu da vurğuladı ki, burada xidmət yüksək səviyyədədir. Satıcıların xoş rəftarı və gülərüzlülüyü alıcılarda xoş təəssürat yaradır.

Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin müəllimi ***Naibə Əliyeva*** isə söhbət zamanı bildirdi ki, muxtar respublikada hər il təşkil olunan ənənəvi məktəbli yarmarkası valideynlərlə yanaşı, müəllimlərin də işinə kömək edir. Çünki burada müəllimlər üçün lazım olan gündəlik icmal və proqramları, həmçinin övladları üçün yeni dərs ləvazimatlarını bir ünvandan ala bilirlər, həm də münasib qiymətə.

Müsahibimiz ***Nurayyə Şeyxova*** övladına məktəbli ləvazimatı almaq üçün Babək rayonunun Güznüt kəndindən gəlib. Həmsöhbətimizin dediklərindən: – Oğlum bu il 8-ci sinifdə təhsil alacaq. Elə onunla birgə yarmarkanın ilk günü Naxçıvan şəhərinə üz tutduq. Bir neçə ildir ki, ailə yaxınlarımızla birlikdə bu yarmarkadan lazım olan məktəbli ləvazimatlarını alırıq. Mən bütün valideynlər adından yarmarkanın təşkilində əməyi keçən hər kəsə təşəkkür edirəm.



Ailəsi ilə yarmarkada iştirak edən alıcılar arasında 8-ci sinif şagirdi ***Namiq Mirzəyev*** də var idi. O, söhbət zamanı dedi: – Artıq bir neçə gün sonra yeni tədris ilini qarşılayacağıq. Müəllimlərim və sinif yoldaşlarım üçün çox darıxmışam. Bu gün burada təşkil olunan yarmarkada özümə yeni məktəbli forması, dəftər və qələmlər aldım. Mənimlə birgə bir neçə sinif yoldaşım da buradadır. İstədiyimiz hər bir məktəbli ləvazimatını ala bildik, çətinlik çəkmədik. Muxtar respublikamızda istehsal olunan məktəbli ləvazimatları tərtibatı ilə göz oxşayır.

Müşahidələrimiz onu göstərdi ki, bu il qəbul edilən qərarla yeni məktəbli formalarının alınmasına valideynlər daha çox maraq göstərirlər. Yarmarkada ən çox alıcı sıxlığı olan yer də məhz məktəbli formalarının satıldığı guşə idi. "Zümrüd Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru ***Mehrəngiz Əkbərova*** ilə də burada həmsöhbət olduq. Müsahibimiz söhbət zamanı dedi: – Məlumdur ki, məktəbli yarmarkası sentyabr ayının 15-dək davam edəcək. Burada böyük alıcı sıxlığı müşahidə olunur. Bilirsiniz ki, muxtar diyarımızda artıq ənənə halını almış bu yarmarkaların keçirilməsində əsas məqsəd valideynlərin münasib qiymətə müxtəlif çeşiddə məhsulu bir arada almasına şərait yaratmaqdır. Biz bu gün burada məktəbli formalarının satışını təşkil edirik. Məhsullarımız da keyfiyyəti ilə hər zaman seçilir.

Valideynləri narahat edən mövzuya toxunan müsahibim qeyd etdi ki, yeni qərara əsasən məktəbli formaları dəyişdirilsə də, yeni formalarla bərabər, valideynlər ötən il istifadə edilən formaları ala bilərlər. 2024-cü il üçün isə ölkə üzrə qəbul olunan dörd formadan biri seçiləcək. Biz hazırda yeni formaların tikilməsini həyata keçiririk. Bilirsiniz ki, muxtar respublikada, təqribən, 30-40 min şagird təhsil alır. Yeni formaların keyfiyyətinə gəldikdə isə, deyə bilərəm ki, istifadə edilən parçaların hər biri Türkiyə Respublikasının müvafiq laboratoriyalarında sınaqdan keçirilərək tam sertifikatlaşmış şəkildə bizə təqdim olunur. Tikilən yeni formalar isə üçipli jarqonlu və lakos parçalardan köynək və jaketlərdir ki, onların tam keyfiyyətli olması üçün xüsusi tikiş aparatlarından istifadə olunur. Biz də çalışırıq ki, məktəblilərimizə keyfiyyətli formalar istehsal edək.

*Bəli, əziz oxucularımız, sentyabrın 15-dək davam edəcək məktəbli yarmarkasına gəlib münasib qiymətə yüksəkkeyfiyyətli məhsullari əldə edə bilərsiniz.*

**Bülbül QULİYEVA**

## "İnnovativ müəllim" və "innovativ direktor" layihəsinə start verilib

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən "İnnovativ müəllim" və "innovativ direktor" layihəsinə start verilib. Layihənin həyata keçirilməsində məqsəd səriştələri və öyrətmə metodikası ilə seçilən pedaqoji və rəhbər heyətin bazasının formalaşdırılması, təhsilverənlərin motivasiyasının artırılması və təhsil sisteminin inkişafına töhfə verəcək layihələrin seçilərək muxtar respublikanın ümumtəhsil müəssisələrində tətbiq etməkdən ibarətdir.




Layihənin 4 mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. I mərhələ elektron qeydiyyat, II mərhələ layihələrin qəbulu, III mərhələ layihələrin qiymətləndirilməsi, IV mərhələ isə mükafatlandırma prosesinin həyata keçirilməsindən ibarət olacaq.

Qeyd edək ki, layihəyə minimum 3 il pedaqoji staja malik, hazırda Naxçıvan Muxtar Respublikası üzrə ümumi, məktəbəqədər, peşə və məktəbdənkənar təhsil müəssisələrində pedaqoji və ya rəhbər vəzifədə çalışan şəxslər müraciət edə bilərlər.

Layihələr yazılı və ya videoformatda 20 sentyabr 2023-cü il tarixədək *layiheqebul@gmail.com* elektron poçt ünvanına göndərilməlidir. Layihənin məzmunu tədrisin keyfiyyətinin artırılması ilə bağlı olmalıdır.

Mükafatlandırma tədbiri 5 oktyabr – Beynəlxalq Müəllimlər Günündə həyata keçiriləcək. Layihə qalibləri mükafatlandırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Ailə, qadın və uşaq hüquqlarının qorunması diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2023-cü ilin avqust ayı ərzində qarşıya qoyulmuş vəzifələrin icrası diqqətdə saxlanılır.

Ötən ay ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmışdır. Belə ki, Şərur rayonunun Yuxarı Daşarx kəndində yaşayan xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud Həsənovlar ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ərzaq payı verilmişdir.

Komitə Babək Rayon İcra Hakimiyyəti ilə birgə Sirab kəndində "Qız övladlarımızı gələcəyin Azərbaycan qadını kimi böyüdək", Şahbuz Rayon İcra Hakimiyyəti ilə birgə Şahbuz şəhərində "Bərabər dayanıqlı ailə planlaşdırılması uğursuz nikahların qarşısını alan əsas faktorlardandır", Səhiyyə Nazirliyi və Kəngərli Rayon İcra Hakimiyyəti ilə birgə Kəngərli rayon Xok kəndində "Həyata ilk addım ana südündən başlayır", Ədliyyə Nazirliyi və Şərur Rayon İcra Hakimiyyəti ilə birgə Şərur rayonunda "Ailə mübahisələrinin hüquqi tənzimlənməsi" mövzularında və Culfa rayonunda fəaliyyət göstərən uşaq müəssisələrində sanitar-gigiyenik vəziyyətlə bağlı müvafiq sahəyə məsul şəxslərin iştirakı ilə maarifləndirici tədbirlər, eyni zamanda 80 qadın arasında müvafiq mövzu ilə əlaqədar 5 müddədan ibarət sorğu keçirilmiş, maarifləndirici broşürlər paylanılmış, tədbirlərdən 200 nəfər yararlanmışdır. Bundan əlavə, komitə və Babək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Uşaq əməyinin istismarının qarşısının alınması" mövzusunda Babək rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin nümayəndələrinin iştirakı ilə tədbir keçirilmişdir.



Komitə sədri Ramilə Seyidova Kəngərli rayon Şahtaxtı kənd sakinləri ilə görüş keçirmişdir. Görüş zamanı vətəndaşların müraciətləri dinlənilmiş, komitənin səlahiyyətləri daxilində qanunamüvafiq baxılmışdır. Komitə Babək Rayon İcra Hakimiyyəti ilə birgə "Ailələrimizi tanıyaq" layihəsi çərçivəsində yeniyetmə və gənclərin iştirakı ilə Qahab kəndində yaşayan evliliklərinin 50 illiyi tamam olan Qasımovlar ailəsində tədbir keçirib. Tək qadınların və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı Naxçıvan şəhəri, Babək və Culfa rayonları üzrə 2-si kompüter istifadəçisi, 2-si bərbər-manikürçü peşə təhsilinə yiyələnməsi üçün 4 qadının məlumatları aid nazirliklərə göndərilmiş, sərmayə kapitalı verilmiş 3 qadının yaşadığı ünvanda və təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, heç bir nöqsan aşkarlanmamışdır.

Ailə-məişət zəminində cinayət və digər hüquqpozmaların qarşısının alınması məqsədilə Culfa və Şahbuz rayon Polis idarəsi tərəfindən qeydiyyatda olan 2 münaqişəli ailə ilə profilaktiki söhbət aparılmış, Babək rayonunun Yarımca kəndində yaşayan aztəminatlı ailənin üzvü olan gənc qızlar və qadınlar üçün dekorativ-tətbiqi sənətin bədii tikmə sahəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmiş, 1 istedadlı qadının 160 manat dəyərində 26 əl işi satılmışdır.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya tərəfindən uşaq əməyindən istifadə hallarının qarşısının alınması məqsədilə keçirilən monitorinqlər zamanı 15 yetkinlik yaşına çatmayanın əməyindən istifadə halları aşkarlanmış, müvafiq tədbirlər görülərək aktlaşdırılmış, uşaq əməyindən istifadəyə şərait yaradan valideynlər və digər qanuni nümayəndələrlə qanunamüvafiq söhbətlər aparılmış, bu kimi halların qanunazidd olduğu onların diqqətinə çatdırılmışdır.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan bir uşağın yaşadığı ünvanda monitorinq keçirilmiş, uşaq hüquq və mənafelərinin pozulması halı aşkar olunmamışdır. Əlavə olaraq avqust ayı ərzində himayəyə verilmiş valideyn himayəsindən məhrum olmuş 1 uşağın qeydiyyatı aparılmışdır.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 22-31 avqust 2023-cü il tarixlərdə Xəzər rayonu Mərdəkan qəsəbəsində 13-16 yaş arası xüsusi kateqoriyalı ailələrdən olan qızlar (şəhid və qazi övladları daxil olmaqla) üçün təşkil olunan "Qızlarla irəli" adlı "Yay düşərgəsi"ndə muxtar respublikadan olan 5 uşağın iştirakı təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Karate turniri keçirilib

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş uşaq, yeniyetmə və gənclər arasında karate üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib. Turnirdə çıxış edən gənclər və idman nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Mirməcid Seyidov dövlət idman siyasətinin icrası istiqamətində həyata keçirilən işlərdən, qazanılan nailiyyətlərdən bəhs edib.



Heydər Əliyev Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının üzvləri öz bacarıqlarını nümayiş etdiriblər. Sonra turnirin fərdi kata və kumite üzrə final görüşləri keçirilib. İlk üç yerin sahibləri diplom və medallarla mükafatlandırılıblar.

## İnci Allahverdiyeva tarixi uğura nail olub

Türkiyənin İstanbul şəhərində kadet, yeniyetmə və gənclər arasında WAKO Avropa birinciliyi keçirilib. Azərbaycan milli komandası tarixi uğura imza ataraq qitə birinciliyindən 16 qızıl, 16 gümüş, 31 bürünc medal qazanıb. Milli komandanın baş məşqçisi Hikmət Hacıyev isə yarışın ən yaxşı rinq məşqçisi – "BEST COACH" mükafatına layiq görülüb.



Azərbaycan milli komandasında çıxış edən yeganə Naxçıvan idmançısı da tarixi nailiyyətin bir parçasına çevrilib. Naxçıvan Kikboksinq Federasiyasının yeniyetmələrdən və gənclərdən ibarət yığma komandasının baş məşqçisi Etibar Qəribovun rəhbərliyi ilə İstanbula yollanan milli komandamızın sırasına qoşulan İnci Allahverdiyeva qitə çempionatında ölkəmizi təmsil etmək şansı əldə edib. İdmançı ilk dəfə iştirak etdiyi mötəbər yarışda ümidləri doğruldub. İnci "low kick" versiyasında 60 kiloqram çəki dərəcəsi üzrə bürünc medala layiq görülüb. Mübarizəyə ¼ final mərhələsindən qoşulan idmançımız ilk görüşündə türkiyəli kikboksçudan üstün olub. Finalın bir addımlığında serbiyalı rəqibinə qalib gələ bilməyən təmsilçimiz üçüncülüklə kifayətlənib. Bu nəticə ilə İnci Allahverdiyeva Avropa çempionatının mükafatçısı kimi Naxçıvan kikboksu tarixində bu ada layiq görülmüş ilk qız idmançı olub.

Qeyd edək ki, idmançımız cari il ərzində iştirak etdiyi "VIII Turkish Open WAKO World Cup" turnirində gümüş, VI Balkan açıq uşu kunq-fu çempionatında isə qızıl və bürünc medallar əldə edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonunun Vayxır kəndində yaşamış Qasımov Yusif Əkbər oğlunun adına olan JN-299 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
www.serqqapisi.gov.az
*Nömrəyə məsul:* Fariz Əhmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 522